Nəzərə almaq lazımdır ki, Şuşanın yenidənqurma işlərinin və şəhərin bitmiş layihə kimi təqdimatının bir sıra məhdudiyyətləri var ki, digər oxşar layihələrdə, ya tam, ya da ayrılıqda mövcud olmayıb.

İlk növbədə qeyd etmək lazımdır ki, Şuşanın unikal ətraf kəndləri hələ ki, Azərbaycan dövlətinin tam nəzarətində deyil. Orada yerləşdirilmiş Rusiya sülhməramlıları, müvəqqəti olaraq həmin əraziyə nəzarət edir. Bu baxımdan, Şuşa və ətraf regionun bütöv landşaft kimi layihələndirilməsi hazırkı mərhələdə mümkünsüzdür. Belə çıxır ki, Şuşa layihəsinin gerçəkləşməsi, müəyyən mənada mərhələli ola bilər.

Ermənistanla sülh müqaviləsi imzalanmamış bu ərazilərin təhlükəsizliyi də potensial xarici investor və ya turistdə tam əminlik yaratmır. Bu ilin sonuna Ermənistanla sülh müqaviləsinin bağlanması çox real görünsə də, hələ ki, bu baş verməyib. Layihələndirmədə bu məqam da nəzərə alınmalıdır. Bu baxımdan yuxarıda qeyd edilən siyahıdakı coğrafi yerlərdən fərqli olaraq, burada xüsusi yanaşma tələb olunur.

Və, nəhayət, Şuşanın unikal relyefi də xüsusi yanaşma tələb edir. Düzdür, adı siyahıda olan digər məkanlarda da çətin relyefli tarixi irs abidələri mövcuddur. Amma fərq ondadır ki, onların layihələndirilməsi, əgər belə demək mümkünsə, sülh şəraitində və kifayət qədər uzun zaman kəsimində baş verib. Şuşa kimi 28 illik işğal dövründə məhv edilmiş şəhərdə bu işləri aparmaq, təbii ki, prosesi xeyli çətinləşdirir.

Bütün yuxarıda qeyd edilən təcrübələr nə qədər faydalı olsa da, onların tətbiqi, qeyd edildiyi kimi, xüsusi adaptasiya istəyir və bu kontekstdə, həmin təcrübələrin Şuşanın bərpasında birəbir istifadəsi real görünmür.

Lakin bununla yanaşı ABŞ-ın Vilyamsburq (Williamsburg) layihəsi Şuşanın yenidən qurulmasında, yuxarıdakı təcrübələr fonunda, daha müvafiq görünür. Bu təcrübənin diqqətlə öyrənilib, müəyyən adaptasiyalarla Şuşada tətbiqi maraqlı və faydalı görünür.

## *Vilyamsburq: Açıq səma altında canlandırılan tarix*[1]

ABŞ-ın Virginiya ştatında yerləşən Vilyamsburq layihəsi 1926-cı ildə Jon Rokfellerin maliyyə dəstəyi ilə gerçəkləşib. Layihənin məqsədi həmin məkanda 18-ci əsr kolonializmini canlandırıb, müasir nəsil üçün onu bir növ teatrlaşdırılmış canlı şəhərə çevirmək olub. Layihəni eyni adlı Kolonial Vilyamsburq (Colonial Williamsburg) Fondu idarə edir və ABŞ-ın Virciniya ştatının Vilyamsburg şəhərindəki tarixi rayonun bir hissəsini canlı tarix muzeyi kimi gerçəkləşdirir. Kolonial Vilyamsburq Fondunun burada bütövlükdə 7300 işçisi var.



Kolonial Vilyamsburq Fondu özəl, qeyri-kommersiya təhsil müəssisəsidir. Qurum birbaşa dövlət və ya federal maliyyəsi almadığı üçün Kolonial Vilyamsburq donorlarından vergidən azad edilən imtiyazlar hesabına ianələrə güvənir.

Kolonial Vilyamsburq mülkü 1927-ci ildə satın alınıb və 1936-cı ildə Rokfellerin evi olub. Açıq səma altında olan şəhəri tam gəzib-dolanmaq üçün 2-3 saat vaxt lazımdır.

Kolonial Vilyamsburq dünyanın ən böyük canlı tarix muzeyidir. 301 akr ərazidə (122 ha) əlamətdar yerlər, işləyən ticarətçilər, tarixi üslubda meyxanalar fəaliyyət göstərir.

Muzeyə şəhərin Kolonial Virginiya əyalətinin paytaxtı olduğu 18-ci əsrdən yüzlərlə bərpa edilmiş və ya yenidən tikilmiş binalar daxildir. Bir müstəmləkə təsfiri olan tarixi ərazi, 18-ci əsr amerikalılarının atmosferini və həyat tərzini təklif etməyə çalışan üç əsas magistral və onları birləşdirən yan küçələri əhatə edir. Kostyumlu işçilər, bəzən müstəmləkə qrammatikasından və diksiyasından istifadə edərək həmin dövrdəki insanlar kimi işləyir və geyinirlər.

## *Bərpa və yenidənqurma*

Bərpa işləri nəhəng tikinti meydançasına bənzəyirdi. Belə ki, 1790-cı ildən sonrakı və bir çoxu 19-cu əsrə aid olan 720 bina sökülüb yenidən quruldu. 18-ci əsrə aid bəzi köhnəlmiş evlər isə tamamilə söküldü. Qubernator Sarayı və Kapitol binası dövr təsvirləri, yazılı təsvirlər, erkən fotoşəkillər əlavə yardımçı məlumatların köməyi ilə əvvəlki yerlərində yenidən quruldu.

[1] https://en.wikipedia.org/wiki/Colonial_Williamsburg

Torpaq və bağlar demək olar ki, hamısı orijinal kolonial canlanma (Colonial Revival) üslubunda hazırlanmışdır.

Yenidən qurulan və ya bərpa edilən 500-ə yaxın binadan 88-i orijinal olaraq etiketlənib. Bunlara tüstüxanalar, hamamxanalar və anbarlar kimi əlavə tikililər daxildir. 18-ci əsrə aid bəzi yeraltı kərpic işləri qorunub saxlanıldı, onlar yenidənqurma kimi təsnif edildi, yerüstü kərpic işləri xilas edilərək nəticədə orijinal kimi bərpa edildi.

Şəhərin qərb tərəfində, 1930-cu illərdən başlayaraq, pərakəndə satış mağazaları, Tacirlər Meydanı adı altında qruplaşdırıldı.

Kolonial Vilyamsburqda, keçmişdəki kimi gündəlik həyatın müxtəlif aspektlərini izah edib, onları nümayiş etdirməklə məşğul olan tarixi reenaktorlar (tərcüməçilər) institutu bərpa edildi. Reenaktorlar müstəmləkə dövründə olduğu kimi işləyir, geyinir və danışırlar.

Bir çox canlı tarix muzeylərinə oxşasa da (Massaçusetsdəki Old Sturbridge Village, Winston-Salemdəki Old Salem və ya Böyük Britaniyadakı Castell Henllys kimi) Kolonial Vilyamsburq, canlı bir şəhərdə fəaliyyət göstərdiyi üçün qeyri-adidir. Həmçinin digər canlı tarix muzeylərindən fərqli olaraq, Kolonial Vilyamsburq hər kəsə günün istənilən saatında tarixi rayonu pulsuz gəzməyə imkan verir. Ödənişlər yalnız gündüz saatlarında sənət və sənətkarlıq nümayişlərini görmək və ya İnqilabçı Şəhər proqramları kimi planlaşdırılan açıq hava tamaşalarında iştirak etmək üçün tarixi binalara daxil olan ziyarətçilərə şamil edilir.

Kolonial Parkvey (Colonial Parkway) yaxınlığındakı Ziyarət Mərkəzində 1957-ci ildə debüt edən "Vilyamsburq : bir Patriotun hekayəsi" ("Williamsburg: The Story of a Patriot") adlı qısametrajlı film nümayiş etdirilir. Bərpa edilmiş ərazilərdə avtomobillərin hərəkəti məhduddur. Əlil arabası üçün əlçatan avtobus xidməti pik yay mövsümündə Vilyamsburq tarixi dairəsinin, həmçinin Jamestown və Yorktownun perimetri ətrafında xidmət göstərir.

Kostyumlu tərcüməçilər həmişə müstəmləkə paltarı geyinməyiblər. 1973-cü ilin yayında sahibələr xüsusi qırmızı, ağ və mavi polyester trikotaj şalvar geyindilər. Bu, ziyarətçiləri çaşdırdı və məyus etdi, buna görə də yayın sonunda eksperiment dayandırıldı, və sahibələr tarixi geyimlər geyindilər.

Kostyumlu tərcüməçilərdən bəziləri heyvanlarla işləyir. Kolonial Vilyamsburq "Nadir Cins Proqramı" müstəmləkə dövründə mövcud olan heyvanların qorunmasına və nümayiş etdirilməsinə kömək edir.




## *İdarəetmə*

Kolonial Vilyamsburq, Kolonial Vilyamsburq Fonduna məxsus və canlı muzey kimi idarə olunur. Bu qeyri-kommersiya təşkilatı ilkin olaraq Rokfeller ailəsi və digərləri, xüsusən də Reader's Digest-in təsisçiləri Lila və DeWitt Wallace və Philadelphia naşiri Valter Annenberq tərəfindən təqdim edilir.



Gəlir əsas etibarı ilə ziyarətdən və ticarətdən gəlir, lakin qonaqpərvərlik obyektlərində itirilir. Digər vəsaitlər qeyri-kommersiya investisiyalarından və fandreyzinq əməliyyatından

yaranır. Son illərdə maliyyə yönümlü səylər ilk növbədə xərclərin məhdudlaşdırılmasına və davamiyyət və qonaqpərvərlik gəlirlərinin stimullaşdırılmasına cəmləşmişdir.

Bütövlükdə, Fondun maliyyə dayanıqlığı dövlət-özəl tərəfdaşlığı (public private partnership) modelinə əsaslanır. Belə ki, muzeyə cəlb edilmiş biznes bir sıra vergilərdən azad olmaqla gəlirliliyini təmin edir, hökumət qurumları isə şəhərin ictimai sektorunu və qonaqpərvərliyini ianələr və fandreyzinq hesabına həyata keçirir.

## 5. ŞUŞANIN PROFİLİ[2]

Şuşa şəhəri nisbətən kiçik və eyni zamanda dağlıq ərazidir. Ərazisi 5.5 kv.km-dir. Şuşa rayonunun 1 yanvar 2016-cı il tarixinə əhalisi 32,8 min nəfər olub. Etnik tərkibinə görə Şuşada əsasən azərbaycanlılar yaşayıb. Belə ki, əhalinin 95,8 %-i azərbaycanlılar, yalnız 4 %-i ermənilər olub.

Şəhərin təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub. Şuşada 17 məhəllə olub: Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Dörd çinar, Dördlər qurdu, Hacı Yusifli, Çöl Qala, Qurdlar, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçilər, Hamamqabağı, Merdinli və Təzə məhəllə. Hər məhəllədə hamam, məscid və bulaq olub.

Şuşa şəhəri 31 kənd ilə birlikdə Şuşa inzibati rayonun tərkib hissəsidir.

Şuşa çoxsaylı tarixi-mədəni abidələri ilə məşhurdur. Bunlardan Daşaltı kəndində müdafiə qalasını, 18-ci əsrdə İbrahimxəlil xanın tikdirdiyi sığınacaq evini, hamam qalıqlarını, Gövhər-ağa məscidini (1884), Aşağı Gövhər-aga məscidini (1875) və s. göstərmək olar.

Şuşanın, uzunluğu 8 km. olan Qala divarı, Qala divarı üzərində tikilmiş bürcləri (17 ədəd) mövcuddur. O cümlədən, burada çoxsaylı karvansaralar, qəsrlər, qalalar, büstlər, komplekslər, muzeylər, imarətlər, mülklər, malikanələr, bağlar, körpülər, bulaqlar, hamamlar və s. mövcud olub.

Şuşanın keçmişdə mərkəzi kimi Bazarbaşı (Rastabazar) göstərilirdi.

Şuşa 1992-ci ildə erməni silahlı dəstələri tərəfindən işğal edilib, işğal dövründə şəhər işğalçılar tərəfindən dağıdılmışdır. 8 noyabr 2020-ci ildə Şuşa düşməndən azad edilib və bu tarix hər il Zəfər Bayramı kimi təntənə ilə qeyd edilir.

Şuşa şəhər ərazisinə görə kiçik məkan olsa da, unikallığına görə böyük potensiala malikdir.

Sovet dönəmində Şuşa SSRİ üçün mühüm sağlamlıq mərkəzi idi. Şəhərin havası, bulaqları və mineral suları buranı unikal sağlamlıq guşəsinə çevirmişdi və Sovet İttifaqının, demək olar ki, hər yerindən Şuşaya axın edib buranı ziyarət edirdilər.

Şuşa və ətraf regionun unikal potensialını dünya üçün əlçatan etmək hazırkı mərhələdə hökumətin əsas prioritetlərindən biridir. Bu baxımdan, şəhərin və regionun turizm üçün təklif edilən istiqamətləri hələ ki, stereotip yanaşma tərzi bağışlayır. Belə ki, Şuşaya təşkil

[2] https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa_rayonu

edilən avtobus marşrutları, Şuşanı ziyarət edib, Cıdır düzündə və ya Qala divarlarının önündə şəkil çəkdirmək, hər bir ziyarətçi üçün önəm daşısa da, qeyri-adi bir şey deyil.



Məntiqi olaraq, əgər Şuşanı özü-özlüyündə unikal bir məkan kimi dəyərləndiririksə, onun marketinq təklifi də unikal olmalıdır. Ənənəvi turizm yanaşması burada arzu edilən effekti verməyəcək. Bu baxımdan, Şuşanın unikallığını hesabatın növbəti hissəsində əksini tapan istiqamətlər üzrə tərtib edib ziyarətçiyə təklif etmək daha uğurlu görünür.

İkinci tərəfdən yalnız turist ziyarətinə bağlanan şəhər modeli, risk var ki, davamlı inkişaf üçün kifayət etməyə bilər. Bu və ya digər səbəblərdən, turist axının səngiməsi ilə Şuşa və ətraf region gəlirlilik və digər iqtisadi problemlərlə qarşılaşa bilər.

Bu səbəbdən, Şuşanın yalnız turizm mərkəzi kimi tərtibatı uzunmüddətli perspektivdə uğurlu olmaya bilər. Bunun üçün ilk növbədə Şuşanın inkişaf planını diversifikasiyalı model əsasında təşkil etmək daha münasib görünür. Turizm istiqaməti ilə yanaşı bu modelin tərkib elementi kimi, özünəməşğulluq, yerli ənənə və bacarıqların dirçəlişi və istehsalın təşkili, habelə ekoturizm planlarının işlənib hazırlanması Şuşanın davamlı inkişafı istiqamətində vacib rol oynayardı.

## 6. ŞUŞA ŞƏHƏRİNİN BƏRPASI VƏ STATUSU İLƏ BAĞLI MÖVCUD QANUNVERİCİLİK

Azərbaycanın mədəniyyət paytaxtı, **Şuşa şəhəri haqqında**" Qanun 31 may 2021-ci il tarixində imzalanıb və Şuşa şəhərinin qorunmasının, bərpasının, öyrənilməsinin, inkişafının və təbliğinin hüquqi və təşkilati əsaslarını müəyyən edir. Qanuna əsasən Azərbaycanın

mədəniyyət paytaxtı Şuşa şəhərinin inzibati sərhədləri daxilində Şuşa Şəhəri Dövlət Qoruğu yaradılır.




Şuşa şəhərinin inzibati sərhədlərinə bitişik yerləşən və onunla təbii-landşaft, sosial, tarixi, mədəni və ya təsərrüfat bağlılığı olan və ya Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizəsi, qorunması və ya inkişafı üçün əhəmiyyətə malik olan ərazilərdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən mühafizə zonasının sərhədləri müəyyən edilir.

Qeyd etmək lazımdır ki, hələ 2000-ci ildə Azərbaycanda **Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında** Qanun qəbul edilib. Qanunda, o cümlədən dövlət təbii qoruqları, habelə təbii abidələr, müalicə- sağlamlaşdırma yerləri və kurortlar haqqında bəndlər də var ki, bunlar Şuşanın gələcək idarəetməsində mühüm əhəmiyyətə malikdir.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin** qərarı **ilə 21 iyun 2022-ci ildə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı**"nın təsdiq edilməsi barədə sərəncam imzalanıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yaşıl texnologiyaların və enerji səmərəliliyi tələblərinin tətbiqi ilə bağlı aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə əlaqələndirmə və monitorinq üzrə müvafiq işçi qrupun yaradılmasına dair təkliflərini 1 (bir) ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 11 avqust 2022-ci ildə **"Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin Siyahısı"**nın təsdiq edilməsi barədə sənəd imzalanmışdır.

Qərarda 35 növ fəaliyyət, əsasən bitkiçilik və heyvandarlıq, ovçuluq və bu sahələrdə xidmətlərin göstərilməsi, habelə xam neft, qaz, metalurgiya, kəşfiyyat-qazıntı işləri, dağ-mədən sənayesi, aqrokimya və s. kimi istiqamətlər əksini tapıb.

# 7. ŞUŞANIN VƏ DİGƏR AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPASINDA MÖVCUD MALİYYƏ İMKANLARI

Qeyd etmək lazımdır ki, hazırda Qarabağın və o cümlədən, Şuşanın intensiv bərpa və yenidən qurma işləri əsasən dövlət büdcəsi hesabına həyata keçirilir. Özəl şirkətlər əsas etibarı ilə podratçı kimi dövlət büdcəsi hesabına maliyələşən layihələri reallaşdırır. İşğal edilmiş ərazilərin azad edilməsindən sonra ilk olaraq 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası istiqamətində **2,2 mlrd. man.** vəsait nəzərdə tutuldu. Növbəti - 2022-ci ildə dövlət büdcəsinə edilən dəyişikliklərdən sonra bu məqsədlə ayrılan vəsait artırılaraq **2,67 mlrd. man**. oldu.

Artıq 2023-cü il dövlət büdcəsi layihəsində işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) **3,0 mlrd. man., və** ya cari ilə nisbətdə 330,0 milyon manat (12,4 faiz) çox vəsait nəzərdə tutulmuşdur.

Bu dinamika onu göstərir ki, işğaldan azad edilən ərazilərin inkişafı dövlətin əsas prioriteti olaraq qalır və adı çəkilən istiqamətdə dövlət xərcləmələri artan xətlə davam etdiriləcək.

Dövlətin bu istiqamətdə əsas hədəflərindən biri Dövlət büdcəsindən ayrılan investisiya xərclərinin optimallaşdırılmasına nail olmaqdır.

# 8. ŞUŞANIN YAXIN PERSPEKTİVDƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Bu araşdırma daxilində Şuşanın bərpa və yenidənqurma layihəsi, habelə onun ziyarətçi və potensial investor üçün cəlbedici etmək layihəsi **5 istiqamətdə** görünür.

## *8.1. Şuşa unikal tarixi və mədəni irs kimi*

Şuşanın zəngin mədəni irsi və möhtəşəm tarixi onun müasir dövrdə və gələcəkdə cəlbediciliyi üçün əsas amillərdən biridir. Ölkəni ziyarət etməyi niyyət edən potensial xarici turist, əgər belə demək mümkünsə, müasirlikdən doyub. Oxşar inkişaf layihələri, bir-birinə bənzər binalar, yeni texnologiyalı eksteryerlər və s. bir qayda olaraq yaxşı ilkin təəssürat bağışlasa da müasir turisti az maraqlandırır. Başqa tərəfdən müasir cəlbediciliyi ilə dünyada tanınan layihələr (məsələn Dubay) artıq bu nişi zəbt ediblər. Təsadüfi deyil ki, bu istiqamətdə külli miqdarda investisiya yatıran ölkələr gözlənilən uğuru qazana bilməyiblər. Misal kimi Qazaxıstanın Astana şəhərini göstərmək olar.

Amma, təcrübə göstərir ki, tarixi və mədəni irsini təqdim edən layihələr daha çox uğura nail olublar. Bir qayda olaraq, onlar nisbətən kiçik investisiya hesabına geniş və davamlı turist sayına malik olublar.

Bu sırada, öncə araşdırılan ABŞ-ın Vilyamsburq layihəsi çox uyğun görünür. Şuşada bunun üçün tam şərait var. Onun bir vaxt mövcud olan 17 məhəlləsinin bir hissəsini teatrlaşdırılmış

obrazda təklif etmək böyük səy, səriştə, səbir, yaradıcı münasibət və, əlbəttə, maliyə tələb etsə də, bu istiqaməti layihələşdirib, maliyələşdirmək son nəticədə daha effektiv görünür.

Burada əsas cəlbedicilik odur ki, layihənin bütün maliyyə yükü hökumətin üstünə düşməyəcək. Belə ki, biznesi və fərdi sahibkarı prosesə cəlb etməklə, həm ümumi layihənin tərkib hissəsi etmək, həm də ticari və xidmət hissəsini onun hesabına qarşılamaq olar.

Dövlət isə bu layihədə əsasən infrastruktur və bərpa işlərinə investisiya qoyar, sahibkarları vergidən azad etməklə və çeşidli imtiyazlar və subsidiyalar təklif etməklə iş adamları üçün cəlbedici mühit yarada bilər. Hər halda Şuşanın müəyyən ərazisində (məsələn, məşhur tarixi "Rastobazar" hissəsində) həmin tarixi səhnələri canlandırıb tacirləri, dulusçuları və digər yaddan çıxmış peşə sahiblərini müasir ziyarətçi üçün əlçatan etmək olar.

Bu tip layihələri dizayn edib ortalığa çıxarmaq kifayət qədər vaxt, yaradıcı münasibət və, ən əsası, kompleks yanaşma istəyir. Dövlət səviyyəsində institutlaşdırılan bu cür layihə aidiyyəti sahələrin və səlahiyyətli orqanların birgə səyi ilə mümkündür. Maliyyə imkanları əsas rol oynasa da, mühüm olan layihənin tərtibatı və sonrakı idarəetməsidir.

### *8.2. Şuşa unikal ənənə və bacarıqların dirçəlişi kimi*

Şuşa yalnız tarixi, mədəniyyəti və təbii abidələri ilə deyil, həm də unikal səriştə və bacarıqları ilə məşhur olub. Bu bacarıqların bir hissəsi şəhərin və ətraf mühitlə, (məsələn, Cıdır düzündə at oynadıb, bu füsunkar mənzərədə yarış keçirmək ənənəsi, Şuşa və ətrafda atçılığı inkişaf etdirmişdi), digəri isə həmin ərazinin unikal iqlim şəraiti ilə bağlıdır (məsələn, Şuşa ətrafında və yalnız burada yetişən xüsusi tut növləri ondan çəkilən meyvə arağın və ya şirəsinin keyfiyyətini unikal edir).



Bu baxımdan, Şuşanın istehsal və xidmət potensialı geniş çeşidli yox, məhz unikallığı ilə seçilən mal və məhsulun, habelə xidmətlərin gerçəkləşməsindən keçir.

Təbii ki, Şuşanın tarixi boyu məşhurlaşdığı digər sənət və istehsal sahələri var ki, onlar indiki qloballaşan dünyada həm ölkə daxilində, həm də ixracda mühüm üstünlüyə malikdir.

Amma  bu bacarıqların bərpası üçün heç də iri istehsal və ya külli miqdarda investisiya lazım deyil. Dövlətin burada rolu müvafiq institusional şəraiti yaratmaq ola bilər. Həmin sahələrin siyahısını müəyyənləşdirib, adı çəkilən istiqamətlərdə bir qayda olaraq fərdi sahibkara müvafiq iqtisadi şəraiti qurmaqla (buraya güzəştli kredit, vergi güzəştləri, habelə subsidiyalar, ixrac imkanları və s. daxil ola bilər) həm kiçik biznesi inkişaf etdirmək, həm də Şuşada və ətrafda yaşayan əhalini işlə təmin etmək olardı.

Adı çəkilən sahələrdə fəaliyyətin təşkilini son zamanlar dünyada populyarlaşan "qiq" (Gig) iqtisadiyyatı üzərində qurmaq daha məntiqi görünür. Qiq iqtisadiyyatı müasir dünyada durmadan inkişaf edir (misal kimi Uber taksi xidmətini göstərmək olar) və özəlliyi odur ki, burada ənənəvi işəgötürən-işçi münasibətləri əvəzinə məsafədən idarə edilən fərdi xidmət göstərilir. Başqa sözlə, bu halda daimi iş yerlərindən fərqli olaraq qısamüddətli müqavilələr və ya sərbəst işlərin (freelance) üstünlük təşkil etdiyi əmək bazarından söhbət gedir.

Şuşa üçün də məhz bu istiqamət uyğun görünür. Məşğulluq probleminin həlli dövlətin prioritet istiqamətlərindən biridir və hökumət müntəzəm olaraq Qarabağ və ətraf bölgələrdə geniş çeşidli iş yerlərinin açılmasını bəyan edir. Amma məsələnin əsaslı həlli investisiya layihələri çərçivəsində açılacaq iş yerləri ilə yanaşı, həm də qiq iqtisadiyyatının hesabına əhalini məşğul etməkdən keçir.

Onu da nəzərə almaq lazımdır ki, unikallığı ilə seçilən səriştə və bacarıqlar həm də müntəzəm yeni yanaşma və daim yenilənən metod və mexanizmlər tələb edir. Əks halda, yalnız keçmiş ənənələrə söykənən spesifik bacarıqlar davamlı və rəqabətə davamlı olmaya bilər. Odur ki, bu istiqamətlərdə müntəzəm təlimlərin təşkili uğurlu nəticə üçün mütləq şərtdir.

Həmçinin unikallığı ilə seçilən bu cür məkanlarda qiq iqtisadiyyatı hesabına formal iqtisadi münasibətlərlə yanaşı fərdi və qeyri-formal fəaliyyətin də inkişafı son anda burada məşğulluğu daha dayanıqlı edə bilər.  Bu istiqamət üzrə geniş imkanlar və uyğun praktikada, özünü doğrultmuş yaxşı təcrübələr Beynəlxalq Əmək Təşkilatının (İLO) müvafiq hesabatında əksini tapmışdır.

### *8.3. Şuşa və ətraf regionun yeni tərtibatda dirçəldilmiş saglamlıq mərkəzi kimi*

Şuşa Sovet dönəmində ümumittifaq sağlamlıq mərkəzi adlanırdı. İnsanlar SSRİ-nin hər yerindən Şuşaya gəlib məzuniyyətini keçirir, həm də sağlamlığını bərpa edirdilər. Bunun üçün Şuşanın müalicəvi əhəmiyyətli bulaqları, mineral suları və unikal havası müvafiq şəraiti yaradırdı[3] [4].

1969-cu ildə "Narzan" tipli karbohidratlı Şırlan mineral suyu 30 km. məsafədən çətin dağ yolları ilə Şuşa şəhərinə gətirilmişdi. Bu həmin vaxt üçün ən uzaq məsafədən gətirilən mineral su kəməri idi. Şuşa kurortunda tənəffüs yolları xəstəlikləri, sinir-əsəb xəstəlikləri, maddələr mübadiləsinin pozulması xəstəlikləri, qan azlığı ilə yanaşı mədə-bağırsaq xəstəliklərinin müalicəsi mümkün olmuşdur.

[3] https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa
[4] http://www.anl.az/down/meqale/525/2021/aprel/739933.htm

Əlbəttə, o zaman yaradılan infrastruktur artıq yoxdur və hətta olsaydı belə, müasir dövrün tələblərinə cavab verməyəcəkdi. Amma bununla belə nəzərə almaq lazımdır ki, Şuşanın o zamankı unikal sağlamlıq mərkəzi kimi fəaliyyəti heç də yaradılmış infrastrukturla bağlı deyildi. Məhz bu yerlərin təbii imkanlarına söykənirdi. Və tarix boyu Şuşa həmişə ilk növbədə təbiəti və relyefi ilə cazibədar olub.

Hazırkı mərhələdə Şuşanın yeni üslubda sağlamlıq mərkəzinə çevrilməsi tamam yeni və qeyri standart yanaşma tələb edir. Sovet dönəmindən fərli olaraq, indi burada adı çəkilən istiqamətdə yeni modelin qurulması zəruri olmaqla yanaşı, həm də  daha çox real görünür. İnvestisiya imkanlarını isə, dövlətin bizneslə birgə PPP modelinə əsaslanaraq daha rasional etmək olar.

Şuşanın yeni biçimdə sağlamlıq mərkəzi modelinin yaradılması bir neçə səbəbdən əlverişli görünür.  Yuxarıda qeyd edildiyi kimi, Şuşanın təbiətini və yeraltı mineral su imkanlarını regionda və bəlkə də dünyada az məkanlar əvəzləyə bilər. Bu baxımdan Şuşa sağlamlıq mərkəzi modeli kimi güclü rəqabətə davamlılığı ilə seçilə bilər. Bu səbəbdən müqayisəli üstünlük prinsipinə əsaslanaraq, söyləmək olar ki, digər oxşar məkanlarla müqayisədə Şuşa ilkin olaraq böyük avantaja malikdir. Beləliklə “xərc-faydalılıq” prinsipində mövcud potensial avantaj bu modelin qurulmasında çox böyük önəm daşıyacaq.

Digər tərəfdən Şuşanın gələcək inkişaf planında diversifikasiyalı modelə əsaslanması onun həm də sağlamlıq mərkəzi kimi fəaliyyətini məntiqi edir. Turizm konyunkturasının riskli olması, bu və ya digər səbələrdən, ayrı-ayrı dövrlərdə turist axının azalması riski, əhalinin burada davamlı gəlirliliyini şübhə altına qoya bilər. Sağlamlıq mərkəzi modeli isə həm sinerji effekti yaradaraq əlavə turizm axınına, həm turistlərə çeşidli xidmətlərin göstərilməsinə və nəhayət, son nəticədə digər yanaşı sahələrin də regionda inkişafına təkan verə bilər.










### *8.4. Şuşa və ətraf regionun ekoturizm mərkəzi kimi*

Son zamanlar ekoloji turizm istiqamətləri çox populyarlaşıb və Azərbaycanda da bu istiqamətlərdə xeyli iş görülüb. 2021-ci ildə qəbul edilmiş Turizm haqqında Qanunda **ekoloji turizm (ekoturizm)** – təbiətə minimum təsir, ekoloji sistemin bütövlüyünün qorunması prinsipləri əsasında səyahət edilən ölkənin (yerin) təbiəti, təbii ekoloji sistemi, bioloji və mədəni müxtəlifliyi ilə tanışlığı özündə ehtiva edən turizm kimi əksini tapıb.

Şuşa və ətraf region ekoturizm üçün çox əlverişli görünür. Buraların təbii abidələri, unikal relyefi, və digər üstünlükləri məhz ekoturizmin təşkili üçün potensial münbit imkanlardır.

Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, hazırkı mərhələdə Şuşa rayonun bütün əraziləri Azərbaycan dövlətinin nəzarətində olmadığından bu layihənin gerçəkləşdirilməsi müəyyən problemlər yaradır. Ekoturizm üçün mühüm şərt yalnız Şuşanın öz ərazisi yox, daha çox ətraf ərazilər (məsələn, Turşsu) cəlbedicidir. Odur ki, bu layihəni növbəti mərhələlərdə gerçəkləşdirmək real görünür.



### *8.5. Şuşa Qarabağ yaşıl enerji modelinin tərkib hissəsi kimi*

Yuxarıda da qeyd edildiyi kimi, artıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 21 iyun 2022-ci ildə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi barədə sərəncam imzalanıb. Şuşanın bu nəhəng layihənin tərkib hissəsi kimi, yaşıl enerji layihəsindən bəhrələnməsi mühüm olmaqla yanaşı, olduqca perspektivli görünür.

Qarabağ regionunda yaşıl enerji modelinin gerçəkləşdirilməsi əsas etibarı ilə Qarabağ iqtisadi rayonunun bütöv bir məkan kimi dəyərləndirilməsi vacibdir. Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və

Tərtər rayonları daxildir. Bu rayonun bütövlükdə potensialı yaşıl enerji üçün perspektiv imkanlar açır. Eyni zamanda qonşu Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) bu potensialı daha da əlverişli edir.

Odur ki, Şuşanın yaşıl enerji perspektivləri mütləq geniş mənada regional kontekstdə dəyərləndirilməlidir.



Bu istiqamətlərin hər birinin ayrı-ayrılıqda inkişaf etdirilməsi son nəticədə Şuşa və ətraf regionun davamlı inkişafı üçün müstəsna əhəmiyyət daşıya bilər. Nəzərə almaq lazımdır ki, Şuşanın, habelə bütövlükdə Qarabağın inkişafı ilk növbədə iqtisadiyyatın burada birtərəfli asılılığına imkan verməməkdir. Yaxın gələcəkdə Şuşa və ətraf regionun yalnız turizmdən, və ya digər fəaliyyət istiqamətlərindən (məsələn, kənd təsərrüfatı) asılılığı müntəzəm olaraq region əhalisinin davamlı gəlirlilik problemini gündəmə gətirəcək. Bu səbəbdən, iqtisadiyyatın zonalar üzrə, müqayisəli üstünlük prinsipi ilə yanaşı, həm də diversifikasiyalı modelə üstünlük verilməsi daha uyğun görünür.

Şuşanın orta və davamlı gəlirlilik konsepsiyası məhz bu yanaşmadan keçir. Eyni zamanda yuxarıda qeyd edilən istiqamətlər, həm də bir-birini tamamlayan fəaliyyət növləridir. Turist axınının davamlı və innovativ olaraq iqtisadi model kimi dəstəyi həmin istiqamətlərin bir-birinə sinerji effekti verə bilər.

Bütün bunlarla yanaşı isə Şuşanın davamlı sosial-iqtisadi inkişafının təməli yerli işçi qüvvəsinin bilik və bacarıqlarının müntəzəm şəkildə təlim keçirib, artırmaq, yeni təhdidlərə rəğmən, onların daha yeni bacarıqlara yiyələnməyindən keçir. Yerli işçi qüvvəsinin bacarıqlarının müntəzəm yenilənməsi müasir dünyada sürətlə dəyişən iqtisadi fəaliyyət növlərinə yiyələnməkdə, bununla da iş bacarıqları bazarında təklifi yeni tələblərə uyğunlaşdırmaqda mühüm əhəmiyyət kəsb edə bilər.

## 9. "DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞI" ŞUŞANIN BƏRPA VƏ YENİDƏNQURULMASINDA ƏSAS MODEL KİMİ

**Yenicə qəbul edilmiş "Dövlət-özəl tərəfdaşlığı" haqqında** qanun **Şuşada və ətraf regionda bu istiqamətdə fəaliyyətin aktivləşdirilməsinə böyük təkan verə bilər.**

Dövlət Özəl Tərəfdaşlığı (PPP) dövlət və özəl sektorlar arasında dövlət infrastrukturu və ya xidmətlərini təmin etmək üçün uzunmüddətli müqavilədir. Burada özəl sektor müəyyən risklər və idarəetmə öhdəlikləri daşıyır, özəl sektora ödənişlər isə performansa əsaslanır.

PPP modelləri - beynəlxalq təcrübədə PPP layihələrinin növləri (yeni və ya mövcud), özəl sektora təyin edilmiş funksiyalar (dizayn, tikinti/yenidənqurma, maliyyələşdirmə, texniki xidmət və istismar) və ödəniş (istifadəçi ödənişi, dövlət ödənişi və ya hər ikisi) ola bilir.

PPP modelinin xüsusiyyətləri - həm tikinti zamanı, həm də istismar dövründə infrastruktur obyekti ilə bağlı məsrəflərin və gəlirlərin uçotu xidmətlərinin göstərilməsinin səmərəliliyini artırır. Optimal risk bölgüsü istənilən PPP sxeminin əsas prinsipidir. Layihənin icrası zamanı potensial risklər müəyyən edilir və dövlət və özəl sektor arasında bölünür. Bu zaman risklər onları daha effektiv idarə edə bilən tərəfə yönəldilir. PPP modelinin digər mühüm elementi performans üçün məsuliyyətdir. Belə ki, dövlət tərəfindən özəl sektora ödənişlər kəmiyyət, keyfiyyət və müddət üzrə əvvəlcədən müəyyən edilmiş tələblərə uyğun olaraq görülən iş və ya əldə edilmiş nəticələr əsasında həyata keçirilir.

Bununla yanaşı, PPP-ni tətbiq etməklə və dövlət alternativ maliyyələşdirmə mexanizmlərindən istifadə etməklə infrastruktur layihələrinin həyata keçirilməsinə yerli və xarici investorların cəlb edilməsi nail olmaq olar.

PPP modelinin geniş tətbiqi özəl sektorun iştirakı ilə ölkə infrastrukturunun yenilənməsi, dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, investorun təcrübəsindən, bacarıqlarından və müasir yanaşmalarından (innovasiyalardan) yararlanmaq, uzunmüddətli, geri qaytarıla bilən investisiya layihələrinin gerçəkləşdirilməsi, habelə dövlət sektorunun iştirakı ilə layihənin həyata keçirilməsi (layihənin dövlət büdcəsindən qismən maliyələşdirilməsi), əlavə zəmanətlər almaq imkanı, son nəticədə isə iqtisadiyyatda və dövlət idarəçiliyində özəl sektorun iştirakının artmasına şərait yaradır.

## 10. NƏTİCƏ VƏ TAPINTILAR

Şuşa və ətraf regionun unikal potensialını dünya üçün əlçatan etmək hazırkı mərhələdə hökumətin əsas prioritetlərindən biridir. Şuşanın unikallığı onun dünya üçün əlçatan və cəlbedici edilməsində unikal marketinq yanaşması tələb edir.

Hazırda Qarabağın və o cümlədən, Şuşanın intensiv bərpa və yenidənqurma işləri əsasən dövlət büdcəsi hesabına həyata keçirilir. Özəl şirkətlər əsas etibarı ilə podratçı kimi dövlət büdcəsi hesabına maliyələşən layihələri reallaşdırır. Dövlətin bu istiqamətdə əsas hədəflərindən biri dövlət büdcəsindən ayrılan investisiya xərclərinin optimallaşdırılmasına nail olmaqdır.

Şuşanın perspektiv inkişafını yalnız turist ziyarətinə bağlamaq riskli ola, onun, davamlı inkişaf üçün kifayət etməyə bilər. Bu baxımdan Şuşanın inkişaf planını diversifikasiyalı model əsasında təşkil etmək daha münasib görünür.

Şuşanın istehsal və xidmət potensialı geniş çeşidli yox, məhz unikallığı ilə seçilən mal və məhsulun, habelə xidmətlərin gerçəkləşməsindən keçir.

Şuşanın unikal səriştə və bacarıqlarını məhz qiq iqtisadiyyatı üzərində qurmaq daha məntiqi görünür. Paralel olaraq işçi qüvvə üçün müntəzəm təlimlərin təşkili uğurlu nəticə üçün mütləq şərtdir.

Təklif edilən çoxşaxəli fəaliyyət istiqamətləri, özü-özlüyündə müqayisəli üstünlüklərə malik seqmentlər olmaqla yanaşı, həm də bir-birini tamamlayan fəaliyyət növləridir. Turist axınının davamlı və innovativ olaraq iqtisadi model kimi dəstəyi həmin istiqamətlərin bir-birinə sinerji effektini verməyi ilə müşaiyyət ediləcək.

Dövlət-özəl tərəfdaşlığı modeli Şuşanın həm bərpasında, həm də gələcək inkişafında davamlılığı təmin etmək üçün daha münasib görünür.

## 11. TÖVSİYYƏLƏR

6) Şuşanın davamlı inkişaf modeli üçün Strategiyanın hazırlanması, bu istiqamətdə prioritetlərin müəyyənləşdirilməsi, habelə hökumətin konseptual yanaşmasınının, o cümlədən resursların cəlb edilməsinin orada əks etdirilməsi müvafiq görünür;
7) Şuşanın inkişaf modlelinin aydın konseptual baxışa və ardıcıl siyasətə söykənməsi vacib şərtdir;
8) Şuşanın həm bərpası, həm də gələcək inkişafının əhatəli və hərtərəfli tərtibi üçün bütün maraq tərəfləri ilə, o cümlədən icma qurumları, bizneslə müzakirələrin təşkili uğur şərtlərindən biridir;
9) Şuşanın bərpası və yenidənqurması prosesində mümkün təsirlərin qiymətləndirilməsi, xüsusilə neqativ eksternaliti təsirlərinin müəyyənlişdilməsi və potensial itkilərin minimuma endirilməsi üçün önəmlidir;
10) İlkin mərhələdə Şuşanın cəlbediciliyinin təmin edilmısi üçün dövlət və ictimai sektorda, habelə biznes səviyyəsində müntəzəm promo materiallarının hazırlanıb dünya ictimaiyyəti üçün əlçatan edilməsi gələcək uğurun təməli üçün böyük önəm daşıyır.

## 12. MƏNBƏLƏR


1) "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Qanun
2) Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Qanun
3) “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə “yaşıl enerji” zonasının yaradılması üzrə Tədbirlər Planı”nın təsdiq edilməsi barədə NK Qərarı.
4) “Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin Siyahısı”nın təsdiq edilməsi barədə NK Qərarı.
5) https://en.wikipedia.org/wiki/Colonial_Williamsburg

6) https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa_rayonu
7) https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa
8) http://www.anl.az/down/meqale/525/2021/aprel/739933.htm

## 5-ci Əlavə

## Yekun Konfransın Gündəliyi

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi

EDF SBIIYF

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)

# «Döndükdə gəlirimiz olsun» layihəsi üzrə

## Yekun Konfrans

Bakı, İBİS oteli
25 Noyabr 2022

# GÜNDƏLİK

| | |
|---|---|
| 09.30 – 10.00 | **Qeydiyyat. Çay, qəhvə dəsti** |
| 10.00 – 10.05 | **Açılış.** ***Sabit Bağırov***, *Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti* |
| 10.05 – 10.35 | **"ŞUŞA XARİCİ SƏRMAYƏÇİNİN VƏ POTENSİAL TURİSTİN GÖZÜ İLƏ",** Dr.İnqilab Əhmədov, layihə eksperti |
| 10.35 – 11.10 | **Sual – Cavab və Şərhlər** |
| 11.10 – 11.35 | **"LAYİHƏ NƏTİCƏLƏRİ VƏ DƏRSLƏR",** Sabit Bağırov |
| 11.35 – 11.55 | **Sual – Cavab və Şərhlər** |
| 11.55 – 12.00 | **Konfransın Bağlanışı.** Yekun söz, Sabit Bağırov |

# 6-cı Əlavə

# Yekun Konfrans iştirakçılarının Qeydiyyat Vərəqi

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi

EDF SBIIYF

Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)

# «Döndükdə gəlirimiz olsun» layihəsi üzrə Yekun Konfrans

*Bakı şəhəri, 25 noyabr 2022-ci il*

| № | SAA | Yaşayış ünvanı | Telefon/ E-mail | İmza |
|---|---|---|---|---|
| 1 | F. Rəsulov | Xəzər Universiteti | 050 327 69 11 | |
| 2 | Fuad Əsədov | Binəqədi, Biləcəri | 051 301 03 11 | |
| 3 | Hafiz Abbasov | Xəzər, Mərdəkan | 070-208-35-20 | |
| 4 | E. Malik - Abbas | Ictimai iqtisadiyyat B | 010-215-55-01 | |
| 5 | Ağalarova Aynur | Nəsimi rayon | 051 365-98-97 | |
| 6 | Əsədova Səbinə | AR Elm və Təhsil Nazir. İqtisadiyyat İnstitutu | 050 599-40-55 | |
| 7 | Fərzəcov Zöhrab | Respublika azadlıq tələbə bl. | 050 318-11-12 | |
| 8 | Əhmədova Xəyalə | Nər.ray Ə.Orucəliyev. | 055 383 77 44 | |

| | | | | |
|---|---|---|---|---|
| 9 | Ramid İbrahimov | Bakuvaxti.az | 0558087789 | |
| 10 | Vüqal Məmmədov | Xətai r, General Həşimov k. | 0556425852 | |
| 11 | Əhməd N. Abbasbəyli | „CVMİ" İB | 0502330588 | |
| 12 | Hüseynova Məryəm M. | Qobu park 3 bina 31 eb 52 | 055-534-11-31 | |
| 13 | Huseynova Məryəm M. | Qobu park 3 bina 31 mənzil 52 | 077-223-19-59 | |
| 14 | Abbasov Nicat Bayram | Xətai ray, Nə Tusi 79 mən 32 | 0502070538 | |
| 15 | Samir Əliyev | Xırdalan şəhəri | 0503393225 | |
| 16 | Qəlib Təpçel | ERC | 0503711244 | |
| 17 | Rasim Adjalov | GM Agency | 078-327-52-08 | |
| 18 | Mehman Əliyev | Turan İA | 080-2157022 | |
| 19 | İlkin Qarayev | KOMİTM | 0502142410 | |
| 20 | Rasim Həşimov | professor | 050 216 66 74 | |
| 21 | Əhməmməd Nuriyev | „Konstitusiya" Araşdırmalar Fondu | 0502232929 | |
| 22 | Kərim Kərimli | SBİİYF | 0503741846 | |
| 23 | Elxan Mehdiyev | müstəqil | 0503716870 | |
| 24 | Aydın Nizamov | Baku | 0557732710 | |
| 25 | İngilab Əhmədov | Xəzər University | 0125961773 | |
| 26 | Şabit Bağırov | SBİİYF | 0552140732 | |
| 27 | | | | |